Azərbaycan ordusu.- 2020.- 19 noyabr. S. 7.



# Torpaq uğrunda ölən varsa, Vətəndir!

İyirmi il əvvəl Ağdam rayonunun Çullu kəndində Allahverdiyevlər ailəsində eyni gündə dünyaya gələn Nazir və Tacir qardaşlarının taleləri, həyat yolları da qoşa oldu. Heç vaxt bir-birilərindən ayrılmayan bu əkiz qardaşlar bir yerdə böyüdülər, orta məktəbi bir oxudular, hərbi xidmətə bir yollandılar, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda bir yerdə döyüşdülər. Bu müqəddəs yolda eyni gündə şəhid olaraq doğulduqları Çullu kəndində torpağa tapşırıldılar.

AZƏRTAC-ın bölgə müxbiri Çullu kəndinə gedərək Nazir və Tacir qardaşlarının məzarlarını ziyarət edib, evlərinə baş çəkərək, ailəsi ilə həmsöhbət olub.

Bir gündə iki övladını torpağa tapşıran Mailə Allahverdiyeva acısı nə qədər böyük olsa da, məğrur dayanıb. Sevinir ki, torpaqlarımız işğaldan azad edilib. Düşməndən oğullarının qisası alınıb: "Vətən yolunda, torpaq yolunda şəhid oldular. Şükür Allaha ki, torpaqlarımız işğaldan azad olundu. Balalarımın qanı yerdə qalmadı".

Əkiz qardaşların heç vaxt bir-birilərindən ayrılmadıqlarını deyən Mailə ana oğlanlarının toylarını da bir yerdə etməyi arzulamışdı. "Bir yatıb, bir dururdular. Həmişə bir yerdə olurdular. Hərbi xidmətə də qoşa getdilər. Gözləyirdim ki, gəlsinlər, evləndirim. Eyni gündə evləndirəcəkdim onları. Gözaltıları da var idi. İki bacı istəyirdilər", - deyən şəhid anası göz yaşlarını saxlaya bilmir...

Nazir və Tacir ailənin sonbeşikləri idilər. Bacıları Sahilə xanım deyir ki, qardaşları evin nuru, işığı, hamının sevimlisi olublar: "Ailədə 10 uşaq olmuşuq. Nazir və Tacir sonbeşik idilər. Anam işdə olduğu üçün qardaşlarımı mən böyütmüşəm. Odur ki, elə bilirəm təkcə qardaşlarım deyil, həm də balalarım şəhid olublar. Onlarla fəxr edirəm".



Qüdrət Allahverdiyev əkiz qardaşlarının vətənpərvər olduqlarını deyib: "Tacir və Nazir topçu kimi düşmən qüvvələrinin darmadağın edilməsində iştirak ediblər. Telefonla danışanda deyirdilər ki, Vətən uğrunda döyüşürlər. Qələbə qazanacağımıza əmin idilər. Ailədə yaşca ən kiçik olsalar da, daha yüksək mərtəbəyə - şəhidlik zirvəsinə ucaldılar. Qardaşlarımla fəxr edirəm".

Nazir və Tacir qardaşlarının timsalında bütün şəhidlərimizə borcluyuq. Çünki ən yeni tariximizi onlar yazdılar, öz qanları ilə. Torpaq uğrunda ölən varsa, Vətəndir!